# 525-ci qəzet

17 avqust 2012-ci il, cümə, №148 (3704). Qiymәti 20 qәpik

www.525.az


# İslam Əməkdaşlıq Təşkilatından Ermənistana çağırış

## “AZƏRBAYCAN ƏRAZİLƏRİNİ İŞĞALDAN AZAD EDİN”

İslam Əməkdaşlıq Təşkilatı Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsini növbəti dəfə kəskin qınayıb. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, cari ilin 14-15 avqust tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Məkkə şəhərində keçirilən İslam Zirvə Toplantısının Dördüncü Fövqəladə Sessiyasında dünya müsəlmanlarının narahatlığına səbəb olan məsələlər müzakirə olunub, Suriya, Fələstin, Mali və Myanmadakı vəziyyətlə bağlı müvafiq qətnamələr qəbul edilib. Zirvə Toplantısının sonunda müzakirə olunmuş məsələlərlə bağlı İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mövqeyini əks etdirən Yekun Bəyannamə qəbul olunub.

Qəbul olunmuş Bəyannamədə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələr Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləyib və Ermənistan Silahlı Qüvvələrini işğal olunmuş Azərbaycan ərazilərindən çıxarmağa çağırıb.



# Prezident Respublika stadionunun rəsmi açılışında iştirak etdi

Prezident İlham Əliyev Tofiq Bəhramov adına Respublika stadionunun əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib. Dövlət başçısı rəmzi açılışı bildirən lenti kəsdi. Məlumatı Prezidentin rəsmi saytı yayıb. Gənclər və idman naziri Azad Rəhimov prezidentə məlumat verib ki, stadionun 85 min 700 kvadratmetr ərazisində əsaslı təmir və yenidənqurma işləri Koreya Respublikasının “Samhwa Telecom” şirkəti tərəfindən həyata keçirilib. Oturacaqlarının sayı 29 min 870-dən 31 min 200-ə çatdırılıb, stadionun ot örtüklü futbol meydançası FİFA standartlarına tam uyğun şəkildə yenidən qurulub. Meydançanın ot örtüyünün alt hissəsində torpaqbərkitmə işləri yerinə yetirilib, drenaj sistemi və Almaniya istehsalı olan xüsusi isitmə sistemi quraşdırılb. Stadionun ot örtüyünün yenidən qurulması Niderlanddan gətirilmiş xüsusi toxum vasitəsilə həyata keçirilib. Meydançanın ətrafındakı qaçış zolağı da Almaniyadan gətirilmiş xüsusi örtüklə yenidən qurulub.

Oyunlar zamanı meydançanın işıqlandırılması üçün köhnə projektor dirəkləri sökülüb, yeni müasir işıqlandırma sistemi quraşdırılıb.

*Ardı 3-cü səh.*





## Obama İlham Əliyevə təbrik məktubu göndərib

ABŞ prezidenti Barak Obama Ramazan bayramı münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.

APA-nın məlumatına görə, məktubda deyilir: “Ramazan ailələrin və icmaların xoş niyyət, savab iş, nəcib əməllər ənənəsinin qeyd edildiyi bayramdır. Bu müqəddəs bayramı qeyd etdiyiniz bir vaxtda Amerika xalqı adından Sizə və xalqınıza ən xoş arzu və diləklərimi yetirirəm. Ümidvaram ki, müqəddəs Ramazan ayı bütün müsəlmanlara səxavət və mənəvi saflıq gətirəcək. Qoy qarşıdan gələn bayram Sizə və xalqınıza sülh, cansağlığı və rifah gətirsin. Ramazan bayramınız mübarək!”

## Bu gündən havanın temperaturu düşəcək

Bakı və Abşeron yarımadasında avqustun 17-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim şimal-qərb küləyi gündüz arabir güclənəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu gecə 22-26, gündüz 31-36 isti olacağı gözlənilir.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulbada 26-27, Buzovna, Mərdəkan, Şüvəlanda 27-28, Türkan, Hövsan, Şıx, Sahildə 29-30 dərəcə isti olacaq.

Azərbaycanın rayonlarında avqustun 17-də hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin axşam bəzi dağlıq rayonlarda şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-25, gündüz 32-37, dağlarda gecə 12-17, gündüz 24-29 dərəcə isti olacaq.

Tibbi-meteoroloji proqnozlara əsasən, Abşeron yarımadasında meteohəssas insanlar üçün çox əlverişsiz olan güclü istilərdən sonra avqustun 17-dən başlayaraq arabir güclənən davamlı xəzri küləyi fonunda havanın temperaturunun xeyli aşağı enməsi meteohəssas insanlar üçün əsasən əlverişlidir.

## İrana zəlzələdən zərər çəkənlərə yardım aparan dörd azərbaycanlı həbs edilib

İranın Şərqi Azərbaycan vilayətində baş vermiş zəlzələdən zərərçəkənlərə kömək məqsədilə yardım toplayan 4 azərbaycanlı fəal həbs edilib.

APA-nın məlumatına görə, Meysəm Azadi, Oktay Rəşidi, Vahid Səidxani və Firudin Ağazadə Urmiya şəhərində əhalidən yardım toplayıb avqustun 15-də Vərzigana gedərkən yolda polis tərəfindən tutulub.

Hazırda azərbaycanlı fəalların harada saxlanıldığı barədə məlumat yoxdur.

## Qubada müəllim intihar edib

Quba rayonunda intihar hadisəsi baş verib. APA-nın şimal bürosunun məlumatına görə, Quba rayonu, Amsar kənd sakini, 1966-cı il təvəllüdlü Azər Əşrəf oğlu Əliyev intihar edib. A. Əliyev özünü yaşadığı evin həyətindəki gilas ağacından asıb. A. Əliyev Amsar kənd orta məktəbində Azərbaycan dili və ədəbiyyatı müəllimi işləyib.

Faktla bağlı araşdırma aparılır.

## Ermənilər əsgərimizi yaraladılar

Ermənilərin atəşkəsi pozması nəticəsində Azərbaycan ordusunun əsgəri yaralanıb.

APA-nın məlumatına görə, hadisə bu gün cəbhənin Gədəbəy istiqamətində qeydə alınıb. Murovdağda xidmət edən Azərbaycan əsgəri, 1993-cü il Almazov Orxan Ələddin oğlu düşmən gülləsinə tuş gəlib. O, ayağından yaralanıb. Yaralı əsgərin vəziyyəti kafi qiymətləndirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəis müavini Teymur Abdullayev APA-ya açıqlamasında faktı təsdiqləyib.

# Müdafiə Nazirliyindən əsgər ölümü ilə bağlı açıqlama

## “DÜNYANIN HEÇ BİR YERİNDƏ MEYİTİN MÜAYİNƏSİNİ DAXİLİ ORQANLARIN ÇIXARILARAQ SATILMASI KİMİ QƏLƏMƏ VERMİRLƏR”

“Avqustun 6-da Naxçıvandakı N saylı hərbi hissədə hemorragik vaskulit xəstəliyindən vəfat edən əsgər Tayfur Bəyovla bağlı yanlış məlumatlar meydana atıldıqdan sonra bəzi “hərbi ekspertlər” və “yazarlar” dünyasını dəyişən əsgərlərin guya daxili orqanlarının götürülməsi barədə mövzunu gündəmdən çıxarmaq istəmirlər. Məlumat üçün bildirmək istəyirəm ki, istər mülkidə, istərsə də hərbidə hər hansı ölümün səbəbini təyin etmək məqsədi ilə meyit yarılır və onun daxili orqanlarından laborator müayinələr üçün tikəciklər (histoloji, kimyəvi, bioloji, kriminalistik) götürülür. Bu proses ölümün səbəbini tam dəqiqləşdirilməsi məqsədi ilə hüquq mühafizə orqanlarının yazılı qərarı əsasında, video və foto çəkiliş əsasında həyata keçirilir”. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, bunu nazirliyin Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin rəisi, Silahlı Qüvvələrin Baş Məhkəmə Tibb eksperti, tibb elmləri namizədi Rasim Əliyev bildirib.

Rasim Əliyev deyib ki, meyitin müayinəsində prokurorun və ya müstəntiqin icazəsi ilə mərhumun valideynləri yaxud yaxın qohumları iştirak edə bilərlər və əksər hallarda iştirak edirlər də: “İstər xəstəlikdən, istərsə də zorakılıqdan ölüm hallarına görə meyit yarılır. Ekspertizanın keçirilməsinə dair müvafiq təlimata əsasən meyitin müayinəsi zamanı üç boşluq — kəllə boşluğu, döş boşluğu və qarın boşluğu açılır. Həmin boşluqdakı orqanlar məhkəmə tibb eksperti tərəfindən çıxarılır, müayinədən keçirilir və yenidən qaytarılaraq həmin boşluqlara qoyularaq tikilir. Sonra meyit yuyulur və ağ mələfəyə bükülüb təmiz halda adiyyəti üzrə təhvil verilir. Ümumiyyətlə, dünyanın hər yerində meyitin müayinəsi bu cür aparılır və heç bir yerdə bizdəki kimi bunu daxili orqanların çıxarılaraq satılması kimi qələmə verilməyə cəhd edilmir. Ən azı ona görə ki, onlar ölmüş insanların toxumalarının da öldüyünü və yararsız olduğunu bilirlər. Bizdəki “ekspertlər” və ya “yazarlar” kimi öz savadsızlıqlarını nümayiş etdirmirlər”.




Ekspert daha sonra bunları deyib: “Sifarişli şəkildə Müdafiə Nazirliyinə qarşı aparılan bu çirkin kampaniyaya biganə qalmaq fikrində deyilik. Təsəvvür edin, “hərbi ekspert” Ələkbər Məmmədov iddia edir ki, əsgərlərin orqanlarının çıxarılması bəzi oliqarxlara orqanların lazım olması ilə bağlıdır. Bu ittihamlarla bağlı mən Ələkbər Məmmədovu məhkəməyə verməyi düşünürəm. Qoy dediklərini sübut etsin”.




# *Zərdüşt Əlizadə:* "İranla müharibə başlasa, Azərbaycan öz bitərəfliyini qoruyub saxlamalıdır"



"İran məsələsi ilə bağlı vəziyyətin belə inkişafı beynəlxalq hüququn ciddi şəkildə pozulması faktına gətirib çıxaracaq. Bu müəyyən dövlətlər blokunun İrana qarşı məhz xəlvəti yox, açıq-aşkar təcavüzü olacaq". Belə bir açıqlama ilə mətbuatda politoloq Zərdüşt Əlizadə çıxış edib. O bildirb ki, bu, BMT Nizamnaməsinin, beynəlxalq hüququn qəti şəkildə öz qüvvəsini itirməsi demək olacaq: "Qərb bir tərəfdən, müxtəlifliyi, tolerantlığı qiymətləndirməyin vacibliyini bəyan edir, digər tərəfdən isə açıq şəkildə qeyri-tolerantlıq, digər xalqların hüquqlarına hörmətsizlik nümayiş etdirir. İraqa qarşı təcavüz həyata keçirilən vaxt bunun üçün ciddi səbəb var idi. Daha doğrusu, bu mənada, səbəb İraq prezidenti Səddam Hüseynin Küveytə qarşı təcavüzü və kürd xalqına qarşı açıq-aşkar müharibəsi idi. İrana gəldikdə isə bu ölkə digər ölkələrin üzərinə hücum çəkməyib. İranın beynəlxalq terrorizmə dəstək verməsi ilə bağlı ittihamları səsləndirən ölkələr özləri açıq şəkildə terror təşkilatları ilə əlaqəlidir". Politoloq deyib ki, İranda demokratiya var, lakin o, Qərb demokratiyasından fərqlənir: "Başqa sözlə desək, İranda islam demokratiyası mövcuddur, orada liberallar, mühafizəkarlar var. Daha doğrusu, bu başqa sivilizasiyadır və Qərb sivilizasiyasından fərqlənir. Buna görə də, Qərbin İrana qarşı təcavüzü dünya üçün böyük bədbəxtlik demək olacaq.Təbii olaraq, Qərb texnoloji nöqteyi-nəzərindən İrandan qat-qat güclüdür. Buna görə də, Qərb yekun nəticədə İraqı, Liviyanı və indi Suriyanı olduğu kimi İranı da məhv edəcək. Başqa sözlə desək, Qərb İranla müharibədə onun infrastrukturunu, şəhərlərini, sənayesini dağıdacaq, ona ciddi və böyük maddi və bəşəri zərbə endirəcək". Z.Əlizadə hesab edir ki, əgər ABŞ İranla müharibə nəticəsində Xəzər dənizinə çıxarsa, bu zaman Amerikanın növbəti hədəfi Rusiya olacaq: "Vəziyyətin belə inkişafına Rusiyanın özü də yol açır. Başqa sözlə desək, ABŞ-ın növbəti hədəfi Rusiyanın neft-qaz sərvətləri, su ehtiyatları və ərazisi olacaq. Lakin şübhəsiz ki, ABŞ İranla müharibədə Çini diz çökdürmək məqsədi güdür". Politoloq İranda müharibənin Cənubi Qafqazda sabitliyi pozacağını deyib: "Çünki bu və ya digər evdə yanğın baş verirsə, o zaman bu qonşu evlərə də keçəcək. İranda müharibə bu ölkənin şimal hissəsində, yəni Cənubi Azərbaycanda stabilliyi pozacaq. İranda belə bir qeyri-stabil vəziyyət isə asanlıqla Cənubi Qafqaza keçə bilər". Qərb ölkələri ilə İran arasında müharibə baş verəcəyi təqdirdə Azərbaycanın hansı mövqeyi tutmalı olmasına gəlincə, Z.Əlizadə deyib ki, Azərbaycan bu müharibənin hansısa tərəfi deyil: "Yəni Azərbaycan nə Qərbin, nə də İranın tərəfindən müharibə etməyəcək. Bu baxımdan Azərbaycan bu müharibədə bitərəfliyini qoruyub saxlamalı və beynəlxalq hüququn müdafiəsi mövqeyindən, yəni qətl və təcavüzə qarşı çıxış etməlidir".

**PƏRVANƏ**

# Prezident Respublika stadionunun rəsmi açılışında iştirak etdi

*(Əvvəli 1-ci səh.)*

Diqqətə çatdırılıb ki, stadionda tribunaların üstünün bağlanması üçün Koreya Respublikasından gətirilmiş xüsusi fəza konstruksiyası quraşdırılıb və 30 min kvadratmetr ölçüdə yanğına və digər təsirlərə davamlı xüsusi membran örtüklə tam örtülüb. Bildirilib ki, tribunada hər biri 10 nəfərlik 16 "ailə baxış otağı" da inşa edilib. Üst hissəsində böyük monitorun quraşdırıldığı tribunada mətbuat nümayəndələri üçün lazımi avadanlıqla təchiz edilmiş 500 nəfərlik xüsusi oturacaqlar qurulub.

Qeyd edilib ki, tribunanın alt hissəsində dörd komandanın istifadəsi üçün soyunub-geyinmə otaqları, sanitar qovşaqlar, duş otaqları, konfrans zalı, məşqçilər, hakimlər üçün otaqlar, həkim otağı, dopinq nəzarət otağı və digər köməkçi otaqlar yaradılıb. Burada, eyni zamanda, mərkəzi idarəetmə və təhlükəsizliyə nəzarət-müşahidə otağı və şərhçi otaqları inşa edilib. Bütün otaqlar müasir yanğın təhlükəsizliyi və mərkəzi havalandırma sistemləri ilə təchiz olunub. Əlillərin tribunaya qalxmaları üçün xüsusi lift quraşdırılıb. Məlumat verilib ki, stadionun VİP binası və tribunası da əsaslı surətdə yenidən qurulub. Burada, həmçinin Türkiyə istehsalı olan mebellərlə təchiz edilmiş 205 nəfərlik restoran yaradılıb. Bildirilib ki, stadionda əlavə olaraq məşqlərin keçirilməsi üçün nəzərdə tutulan mövcud futbol meydançası yenidən qurulmuş, soyunub-geyinmə otaqları, sanitar qovşaqları, duş kabinələri olan bina inşa edilib. Stadionda ot örtüyünün isitmə sistemini istiliklə təmin etmək üçün qazanxana inşa edilib. Giriş hissədə eyni vaxtda 50 nəfərin keçə biləcəyi turniket keçid sistemi quraşdırılıb. Stadionun fasadında uzunluğu 30 metr olan elektron monitor quraşdırılıb. Burada quraşdırılmış 44 işıqlandırma dirəyinə təhlükəsizlik nəzarət kameraları və səsgücləndirici dinamiklər birləşdirilib. Stadionun daxili və xarici elektrik, su-kanalizasiya, rabitə, internet şəbəkəsi və qaz xətləri tamamilə yenidən qurulub. Ərazidə 2 min kvadratmetr sahədə yaşıllaşdırma işləri görülüb.

Prezident İlham Əliyev stadionda görülmüş işlərdən razılığını bildirib, müvafiq tapşırıq və tövsiyələrini verib.

# *Sevinc Fətəliyeva:* "Azərbaycanın güclənməsini istəməyənlər hələ də az deyil"



"Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həll edilməsi Azərbaycan dövlətinin qarşısında duran ən öncül strateji vəzifələrdən biridir". Bunu mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili Sevinc Fətəliyeva dilə gətirib. Millət vəkilinin dediyinə görə, istər mərhum dövlət başçısı Heydər Əliyev, istərsə də ölkə Prezidenti İlham Əliyev tərəfindən dəfələrlə bəyan edilib ki, Azərbaycan istənilən şəraitdə özünün ərazi bütövlüyünü bərpa edəcək və təcavüzkar qüvvələr işğal olunmuş Azərbaycan ərazisindən çıxarılacaq.

S. Fətəliyeva bildirib ki, məhz bu cür qətiyyətli və prinsipial mövqeyin fonunda Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli naminə bütün resurslarından səmərəli istifadə etməkdə və aktiv, hücumçu diplomatiya həyata keçirməkdədir.

Millət vəkilinin qeyd etdiyinə görə, bunun da qanunauyğun nəticəsidir ki, son illərdə bütün beynəlxalq qurumlarda münaqişəyə münasibət getdikcə dəyişir, reallıq aydın olmağa başlayır: "Azərbaycanın tutduğu prinsipial mövqeyin və sərgilədiyi praqmatik siyasətin fonunda dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən həllinin zəruri və qaçılmaz bir proses olduğunu hər zaman bəyan edirlər. Məhz bunun nəticəsidir ki, beynəlxalq təşkilatların bir sıra sessiyalarında Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli ilə bağlı fundamental və zəruri qətnamələr qəbul edilib. Elə bu prosesə paralel olaraq ATƏT-in Minsk qrupu da münaqişənin həlli yönündə öz fəaliyyətinin səmərəlilik səviyyəsini artırmaqdadır. Prezidentin bildirdiyi kimi, ATƏT-in Minsk qrupu həmsədrlərinin təklifləri Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması, erməni qoşunlarının bütün işğal olunmuş ərazilərdən çıxarılması, məcburi köçkünlərin doğma yurd-yuvalarına qayıtması və bütün kommunikasiya xətlərinin açılmasına əsaslanır. Yenə də Prezidentimizin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan müharibə tərəfdarı deyil və məsələnin sonuna qədər diplomatik yollarla həllini tapmağa çalışacağıq. Lakin təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, qonşularımızın qeyri-konstruktiv mövqeyi bu yolu çox çətinləşdirir. Beynəlxalq qurumlarda da bizim mübarizə apardığımız 2 əsas qrup var: erməni lobbisinin nümayəndələri və bizim nailiyyətlərə qısqanclıqla yanaşan, bizim artan nüfuzumuzu istəməyən qüvvələr".

S.Fətəliyevanın sonra bildirdiyinə görə, aydındır ki, əgər bu münaqişə həllini taparsa, Azərbaycan gücünə güc çatacaq, daha sürətli addımlarla inkişaf edəcək və bunu istəməyənlər çoxdur. Lakin onların səyləri bu günə kimi ciddi bir nəticə verməyib, getdikcə də mövqeləri bu istiqamətdə zəifləməkdədir:

"Bundan əlavə, günü-gündən hərbi gücümüz, ordumuzun qüdrəti artmaqdadır, Azərbaycan ordusu hazırda Cənubi Qafqazın ən güclü silahlı qüvvəsidir və Ali Baş Komandanın əmri gələn kimi torpaqlarımız azad olacaq. Buna mənim heç bir şübhəm yoxdur".

**KAMİL**

# "Ermənistan artıq Azərbaycan üçün deyil, dünya üçün də problem yaradır"



"Qeyri-demokratik ölkə ilə Qarabağ problemini həll etmək olmaz".Bunu mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili, politoloq Aydın Mirzəzadə Qarabağ münaqişəsinin həllinin demokratiyanın inkişafından asılı olması haqda tez-tez dövri mətbuatda yer alan fikirlərə münasibətini bildirərkən dilə gətirib. Millət vəkilinin dediyinə görə, bu fikirlərdə həqiqət payı az deyil: "Bu, bir tərəfdən düzgün fikirdir ki, qeyri-demokratik ölkə ilə Qarabağ məsələsini həll etmək mümkün deyil. Ancaq iş burasındadır ki, tək Azərbaycanın demokratik olması kifayət etmir. Burada torpaqlarımızı işğal edən təcavüzkar Ermənistanda da bir demokratik təfəkkürün çox olması vacibdir. Çünki Ermənistan bu gün təkcə Azərbaycana deyil, beynəlxalq hüququn normalarına meydan oxuyur. Ermənistan artıq Azərbaycan üçün deyil, dünya birliyi üçün də problem yaradır. Yəni, bu gün şübhəsiz ki, dünya birliyinin Qarabağ probleminin həlli üçün qeyri-demokratik ölkə olan Ermənistanı beynəlxalq hüququn normaları ilə ədalətə və hüquqa, hörmətə cəlb , onu buna məcbur etməsi çox vacibdir".

A.Mirzəzadə onu da bildirib ki, Qarabağ probleminin həlli təkcə Azərbaycandan asılı deyil: "Onsuz da Azərbaycan bu problemin onun həlli üçün maksimum səy və fəaliyyət göstərir".

**KAMİL**

# *Zahid Oruc:* "Ermənistanın indiki vəziyyətdə Azərbaycanla rəqabət aparması qeyri-realdır"

"İşğalçı ölkə olan Ermənistanın iqtisadi və sosial vəziyyəti çox ağır durumdadır. Demək olar ki, Ermənistan əhalisi kütləvi şəkildə ölkəni tərk edir. Təkcə Azərbaycanda deyil, o cümlədən, kənar dövlətlərin ərazisində də məskunlaşmaq istəyən ermənilərin sayı getdikcə artır". Belə bir açıqlama ilə millət vəkili Zahid Oruc çıxış edib. Onun sözlərinə görə, belə vəziyyət işğalçı Ermənistanın ağır bir vəziyyətdə olduğunu bir daha sübut edir: "Ona görə də, həmin ölkənin vətəndaşları ayrı-ayrı ölkələrə üz tutaraq kömək istəyirlər. Azərbaycana uzun müddət düşmən kimi yanaşan Serj Sarkisyan rejimi artıq sadə xalqın dəyişən münasibətindən qorxuya düşüb".

Millət vəkili deyib ki, tarixi proseslər zəminində hər zaman yaradılmış mənfi azərbaycanlı obrazını indi ermənilərə sırımaq hakimiyyətə xeyli dərəcədə çətinlik törədir: "Ən başlıcası ona görə ki, ermənilər əvvəlki kimi ideologiya ətrafında deyil, daha çox real sosial problemlərinin həlli üzərində düşünürlər. Yəni, insanlar hansısa şərti gələcəyi əsas götürüb onun ardınca qaçmaq istəmirlər. Bir sözlə, həmin sadə ermənilər görür ki, Qarabağ kartı üzərində hakimiyyəti ələ keçirənlər böyük vətənpərvərlik ideologiyası altında var-dövlət ələ keçiriblər". Z.Oruc hesab edir ki, bu gün işğalçı ölkə olan Ermənistanın daxili vəziyyətini gizlətmək mümkün deyil: "Ona görə də, ermənilər öz həyatlarını S.Sarkisyan zülmündən xilas etmək üçün işğalçı ölkəni tərk edirlər. Çünki Ermənistanın heç bir siyasi gücü yoxdur. Bu vəziyyətdə də Azərbaycan dövləti ilə hər hansı bir rəqabət aparması qeyri-realdır".

Millət vəkili Ermənistan rəhbərliyinin ölkədə mövcud demoqrafik vəziyyətdən çıxış yolu tapa bilməyəcəyini deyib. Suriyadan olan ermənilərin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə yerləşdirilməsi niyyətinə də toxunan millət vəkili bununla Ermənistan rəhbərliyinin növbəti dəfə beynəlxalq hüquqa zidd addım atmaq niyyətinin olduğunu deyib: "Azərbaycan tərəfi hələ bir neçə il əvvəl işğal olunmuş torpaqlarda qanunsuz məskunlaşma ilə bağlı məsələ qaldırmışdı. Bundan sonra BMT-nin faktaraşdırıcı missiyası işğal olunmuş torpaqlara səfər etdi, qanunsuz məskunlaşma yerləri və onların sayı barədə hesabat hazırladı. Bu sənədlər qanunsuz məskunlaşmanın yolverilməz olmasına dair çağırış idi. Lakin Ermənistan bu çağırışa məhəl qoymadı".

Z.Oruc hesab edir ki, beynəlxalq qurumlar, ATƏT-in Minsk qrupunun həmsədr dövlətləri bu məsələyə münasibət bildirib, konkret mövqe ortaya qoymalıdırlar".

**PƏRVANƏ**

# *Mübariz Qurbanlı:* "Türkiyənin bölgədəki proseslərə ciddi təsir imkanları var"



"Türkiyə bölgədə böyük nüfuza malik olan dövlətdir və onun proseslərə təsir etmək imkanları var. Bu baxımdan, ABŞ dövlət katibinin Türkiyəyə səfəri zamanı aparılan müzakirələr xüsusi diqqət mərkəzindədir, eyni zamanda, məlum səfər Türkiyənin bölgədəki güclənən nüfuzunu bir daha təsdiqləyir". Bu fikirləri mətbuata açıqlamasında Milli Məclisin üzvü Mübariz Qurbanlı deyib. M.Qurbanlı bildirib ki, Türkiyə Cənubi Qafqaz bölgəsində də təsir gücünə malikdir. Cənubi Qafqaz geosiyasi və geoiqtisadi baxımdan dünyanın həssas bölgələrindən biridir. Millət vəkilinin sözlərinə görə, bu baxımdan, regionda mövcud olan münaqişələrin həlli ilə bağlı Türkiyənin təşəbbüsləri təqdirəlayiqdir.

M.Qurbanlı qeyd edib ki, regiondakı münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsi bütövlükdə regionda mühüm layihələrin reallaşmasına mane olur. Dünyanın böyük dəyişikliklərə məruz qaldığını deyən millət vəkilinin dediyinə görə, hazırda dünyada aparıcı yeri nə hərbi güc, nə əsgəri qüvvənin sayı deyil, yeni texnologiyalar, elm və dövlətlərin iqtisadi gücü tutur:

"Dövlətlərin iqtisadi potensialının artmasında iqtisadi layihələr xüsusi yer tutur. Amma münaqişələr isə buna başlıca maneədir. Ona görə də, dünya dövlətləri Dağlıq Qarabağ münaqişəsinin həllinə maraq göstərməkdədir. Türkiyənin bu baxımdan təşəbbüsləri də yüksək dəyərə malikdir. Azərbaycanla Türkiyə strateji müttəfiq, dost və qardaş ölkələrdir. Qardaş dövlət kimi Türkiyə münaqişənin həlli prosesində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir. Dövlət modeli baxımından Türkiyə islam dünyasında cəlbedici rol oynayır. Azərbaycan da dünyəvi dövlət kimi iqtisadi və siyasi modelinə görə cəlbedici ölkədir. Bizim Türkiyə ilə ortaq maraqlarımız başqa ölkələr ilə müqayisədə daha çoxdur.

Türkiyə zaman-zaman belə təşəbbüslərlə çıxış edərək Qafqazı sülh və əminamanlıq bölgəsinə çevirmək istəyir, bölgə dövlətlərinin iqtisadi birliyinə nail olmağa çalışır. Qarabağ problemi isə bütün bunlara mane olur. Qeyd edim ki, bu münaqişə bütün bölgə dövlətlərinə ziyan vurur. Artıq Cənubi Qafqazda Rusiya üçün Ermənistanın əhəmiyyəti azalıb. Çünki Türkiyə bölgənin güclü dövləti kimi proseslərə təsirini artırır. Ümumiyyətlə, Qarabağ probleminin həlli ilə bağlı Türkiyənin təşəbbüsləri çox dəyərlidir".

**KAMİL**

# Məcburi köçkünlər üçün iftar süfrəsi açılıb

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu ilə birlikdə Dövlət İqtisad Universitetinin 4 nömrəli yataqxanasında baş verən yanğından zərər çəkmiş məcburi köçkünlər üçün iftar süfrəsi təşkil edib. Müqəddəs Qurani-Kərimdən ayələrin oxunması ilə başlanan mərasimdə Ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib olan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb, şəhidlərimizin ruhuna dualar oxunub. Növbəti Ramazan bayramının Qarabağ torpaqlarında keçirilməsi arzulanıb: "Bütün müsəlman aləminin səbirsizliklə gözlədiyi müqəddəs Ramazan ayında edilən ən böyük ibadətlərdən biri də oruc tutmaqdır. Oruc tutmaq fəzilətli bir əməl olduğu kimi, oruclu bir kimsəyə iftar vermək də onun qədər fəzilətlidir".

Tədbirdə məcburi köçkünlərə dövlət tərəfindən daim diqqət və qayğı göstərildiyi, onların həyat şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlərin həyata keçirildiyi diqqətə çatdırılıb. Bildirilib ki, yanmış yataqxanada təmir-bərpa işləri sürətlə davam etdirilir.

Sonda iftar süfrəsində iştirak edənlər təşkilatçılara minnətdarlıqlarını bildiriblər.

**S.MÜRVƏTQIZI**

# İranda həbsdə olan Azərbaycan şairlərindən təzə xəbər



İranda həbsdə saxlanılan Azərbaycan şairləri Fərid Hüseyn və Şəhriyar Hacızadənin valideynləri və doğmaları onların məhkəmə işinin hakimi ilə görüşüblər.

Bu barədə APA-ya Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) mətbuat katibi Elman Abdullayev məlumat verib. Görüşdə Azərbaycanın Təbrizdəki Baş Konsulluğunun nümayəndəsi də iştirak edib. Hakim şairlərin yaxınlarına bildirib ki, iş üzrə dəqiqləşdirmələr aparılır, lakin məhkəmə qərarının veriləcəyi gün hələlik məlum deyil.

Yaxınları Fərid Hüseyn və Şəhriyar Hacızadənin özləri ilə də görüşüblər.

Qeyd edək ki, mətbuatda azərbaycanlı şairlərin guya avqustun 15-də məhkəmə prosesinin keçirilməsi barədə məlumatlar yayılıb.

Xatırladaq ki, Fərid Hüseyn və Şəhriyar Hacızadə İrana şeir festivalında iştirak üçün gedib və mayın 2-də orada həbs olunublar.

# Xəstəlikdən dünyasını dəyişən əsgərin atası müdafiə nazirinə müraciət edib

Müdafiə Nazirliyi bir qədər əvvəl xəstəlikdən dünyasını dəyişmiş əsgər Tayfur Bəyovla bağlı məlumat açıqlayıb. Nazirliyin mətbuat xidmətindən APA-ya daxil olan məlumatda bildirilib ki, mərhum əsgərin atası, Qusar rayonunun Cibir kənd sakini Bəyov Hacıkərim Şıxkərim oğlu müdafiə naziri, general-polkovnik Səfər Əbiyevə müraciət edib.

Hacıkərim Bəyovun nazirə ünvanladığı teleqramda deyilir: "Cənab Səfər Əbiyev! Oğlum Bəyov Tayfur Hacıkərim oğlunun 06.08.2012-ci il tarixində Naxçıvan MR-də hərbi xidmətdə vəfat etməsi ilə bağlı internet səhifəsində yer alan informasiya ilə bağlı mənim və ailə üzvlərimin heç bir əlaqəsi yoxdur. Mən həyəcanlı olmuşam. Bakı şəhərindən gələn hərbi ekspertlər məsələyə aydınlıq gətirmişdir. Oğlumun ölümü ilə bağlı cinayət işinə nəzarəti gücləndirməyi xahiş edirəm".

Xatırladaq ki, mətbuatda Tayfur Bəyovun ölümü ilə bağlı bir sıra məqalələr dərc olunub, əsgərin meyitinin Məhkəmə Tibb Ekspertizası tərəfindən yarılması onun daxili orqanlarının çıxarılaraq satılması kimi təqdim edilib.

Qeyd edək ki, hadisə Müdafiə Nazirliyinin Naxçıvanda yerləşən "N" saylı hərbi hissəsində qeydə alınıb. Müdafiə Nazirliyi 1994-cü il təvəllüdlü Bəyov Tayfur Hacıkərim oğlunun hemoqradik vaskulit xəstəliyindən hospitalda dünyasını dəyişməsi faktını təsdiqləyib.

T. Bəyovun bu ilin aprel ayında Qusar rayonundan həqiqi hərbi xidmətə çağırıldığı bildirilib.

# SEPAH-la əməkdaşlıq edən dəstə üzvlərinin məhkəməsi başlayır

İran İslam İnqilabı Keşikçiləri Korpusu — SEPAH-la əməkdaşlıq edən dəstə üzvlərinin cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb. APA-nın məlumatına görə, dəstə üzvlərinin cinayət işi baxılmaq üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Cinayət işi hakim Əlövsət Abbasovun icraatına verilib. Prosesin hazırlıq iclası isə avqustun 28-nə təyin edilib.

Qeyd edək ki, Milli Təhlükəsizlik Nazirliyinin (MTN) martın 14-də yaydığı məlumata əsasən, nazirliyin həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində, Azərbaycan Respublikasının suverenliyi və dövlət təhlükəsizliyi zərərinə olaraq casusluq etməklə dövlətə xəyanətdə və digər ağır cinayətlərin törədilməsində təqsirli bilinən 22 nəfər tutulub.

Bildirilib ki, Azərbaycan Respublikasının vətəndaşları — Kərimov Niyazi Əlövsət oğlu, Əliyev Mübariz İsmayıl oğlu, Tağıyev Elman Ramiz oğlu, Cəlilov Nüsrət Aydın oğlu, Qasımov Rahim Müseyib oğlu, Zəkiyev Məmmədtağı Əlikram oğlu, Həşimov Bəhram Nazim oğlu, Abbasov Ayaz Fərədağa oğlu, Abbasov Əfqan Fərid oğlu, Məmmədov Şahin Həsənağa oğlu, Ağayev Mirələsgər Mirqasım oğlu, Zülfüqarov Rövşən Abdulbağı oğlu, Ələkbərov Həmidağa Tofiq oğlu, Qasımov Seymur Səxavət oğlu, Rəsulov Taleh Əliyusif oğlu, Həbibov Ceyhun Valeh oğlu, Kərimov Elçin Ələsgər oğlu, Məmmədov Zahid Gülbudağ oğlu və qeyriləri İran İslam Respublikasının xüsusi xidmət orqanı olan "İslam İnqilabının Mühafizəçiləri Korpusu" — "SEPAH"ın əməkdaşları tərəfindən məxfi əməkdaşlığa cəlb olunaraq, "SEPAH"ın əməkdaşlarının tapşırıqları əsasında casusluq edərək, Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi zərərinə istifadə üçün məlumatlar toplayıb və verib, eləcə də İranın xüsusi xidmət orqanlarının nümayəndələrinə kömək edə biləcək şəxsləri axtarıb taparaq onları "SEPAH"ın əməkdaşlarının əlaqəsinə təqdim ediblər.

"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə

# Jurnalist, maarifçi və ictimai xadim Əsgər ağa Gorani Gəncədə yad edilib




HƏSƏN BƏY ZƏRDABİNİN TƏLƏBƏSİ VƏ ƏMƏL DOSTU MİLLİ MƏTBUATIN 137 İLLİYİNDƏ EHTİRAMLA ANILIB

**Builki Milli Mətbuat Günü bəlkə də Gəncədə son illərin sözün əsl mənasında ən dəyərli sayıla bilən bir ictimai aksiya ilə yaddaşlarda qalacaq. Azərbaycan milli mətbuatının yaranmasının 137-ci ildönümü günü Gəncədə fəaliyyət göstərən qəzet, jurnal və informasiya agentliklərinin əməkdaşları, eləcə də televiziya kanallarının bölgədəki təmsilçiləri yəqin ən azı son 50 ildə ilk dəfə olaraq, görkəmli maarifçi, ictimai xadim və Azərbaycanın ilk jurnalistlərindən olan Əsgər ağa Goraninin məzarı önünə qərənfillər qoyublar.**









Həsən bəy Zərdabinin tələbəsi və məsləkdaşı olan Əsgər ağa Gorani 1910-cu ildə 53 yaşında vəfat edib və Gəncənin qədim "Səbzikar" qəbiristanlığında dəfn olunub.

Nə qədər utancdoğuracaq olsa da, görkəmli maarifçi, publisist, teatr xadimi (!), xeyriyyəçi və nəhayət, güclü ictimai fiqur (o, ömrünün son illərində Gəncə şəhərinin indiki dillə desək, meri işləyib) olmuş Əsgər ağanın Gəncə memarlıq ənənələri üslubundakı məqbərəsi onilliklər ərzində bərbad hala düşmüş; hətta içərisi geniş olduğundan, bir növ qəbiristanlığın taxta, daş, sement anbarına çevrilmişdi. Amma bu qədim qəbiristanlıqda nəhayət təmir işlərinə başlanması xəbəri bir ümid müjdəsi kimi yerli media əhlini də bura cəm edib.

"Qarabağnamə"nin müəllifi olan Mirzə Adıgözəl bəyin nəvəsi, 1857-ci ildə Gəncə (Yelizavetpol) qəzasının Goran kəndində dünyaya göz açan Əsgər ağa Haqverdi ağa oğlu Adıgözəlov-Gorani ilk təhsilini Gəncə şəhər məktəbində aldıqdan sonra Bakıda gimnaziyada oxuyub və oranı qızıl medalla bitirib. Sonra Moskvada Petrovski-Razumovski adına Kənd Təsərrüfatı və Meşəçilik Akademiyasında torpaqşünaslıq üzrə ali təhsil alıb.

Hələ gimnaziya tələbəsi ikən o, müəllimi Həsən bəy Zərdabinin təşəbbüsü ilə tamaşaya qoyulmuş Mirzə Fətəli Axundov komediyalarında baş rolları ifa edib. Azərbaycan milli teatrının yaranması faktı kimi tarixə düşmüş, 1873-cü ilin martın 10-da oynanılan "Hekayəti vəziri xani Lənkəran" tamaşasında Teymur ağa, bir qədər sonra, aprelin 17-də göstərilən "Hekayəti mərdi xəsis"də isə Hacı Qara rollarını ifa edən Əsgər ağa ilk səhnə aktyorlarımızdan sayılır.

Moskvada təhsil alarkən Azərbaycanın ilk mətbu orqanı olan "Əkinçi" qəzetinin ən fəal yazarlarından olan Əsgər ağanın bu qəzetdə 39 məqalə və məktubu çap olunub. Yaranmaqda olan müasir baxışlı milli ziyalı təbəqəsinin öncüllərindən olan Əsgər ağanın istər məqalələri, istər də müəllimi Həsən bəyə və dostlarına yazdığı məktubları onun maarifçi-tərəqqipərvər fikir və əməlinin kiçik nümunələridir. Bu məktublardan Əsgər ağanın xalq arasında maarif işinin gücləndirilməsinə dair fikirləri, onun məktəblər üçün riyaziyyat, tarix, coğrafiya və əlifba kitabları tərtib etdiyi (!), Gəncəyə dönərkən burada jurnal nəşr etmək niyyəti və digər ideyaları aydınlaşır.

Yaradıcı və bədii zövqə malik Əsgər ağa həmçinin Ağa Məhəmməd Şah Qacarın Qafqaza yürüşündən bəhs edən "Qara yel" tarixi romanının, "Qocalıqda yorğalıq" pyesinin və "Hənək, hənək, axırı dəyənək" vodevilinin (!) , A. S. Puşkin və M. Y. Lermontovdan tərcümələrin müəllifidir.

Ali təhsilini başa vurduqdan sonra Əsgər ağa bir müddət Tiflis və Kutaisdə, daha sonra Gəncəyə qayıdaraq burada bir sıra dövlət vəzifələrində çalışıb. 1905-ci ildə isə gəncəlilər bu nəcib şəxsiyyəti özlərinə rəhbər seçiblər. Ömrünün son 5 ilində Gəncə şəhər Bələdiyyəsinin sədri işləyən Əsgər ağa Gorani özünün maarifçilik və xeyriyyəçilik əməlləri ilə tarixə düşüb. Onun təşəbbüsü və bir çox hallarda vəsaiti ilə Gəncədə biri qızlar üçün dörd məktəb, bir xəstəxana açılıb, sahil bağı salınıb, yollar və küçələr abadlaşdırılıb, yeni binalar inşa edilib, dahi Nizaminin qəbri təmir olunub...

102 il əvvəl Əsgər ağanın dəfninə böyüklü-kiçikli bütün Gəncə gəlibmiş. Zaqfqaziyanın bütün qəzetləri ona xatirə yazıları dərc ediblər. Gəncəlilər Əsgər ağanın məzar-türbəsinin də "Səbzikar"da ən hündür olmasını qərarlaşdırıblar.

**Məyər ol Əsgəri-Gorani gələ,**
**Neçə məktəb gələ dəxi əmələ.**

Seyid Əzim Şirvaninin bu sətirləri neçə nəslin dilinin əzbəri olub. Demək olar ki, 20-ci əsrin 50-ci illərinədək "Əsgər ağa" türbəsi Gəncə ziyalıları üçün nəcib əməllərə abidə simvolu olub. Amma onilliklər keçdikcə, Əsgər ağanın müasirləri və onların övladları həyatdan köçdükcə, zaman-zaman nəcibliyin yerini başqa "dəyərlər" tutduqca, "Əsgər ağa" türbəsinin adı, orada kimin uyuması faktı belə unuduldu.

Amma "su gələn arxa bir də su gələr" axı... Son vaxtlar ölkəmizdə, xüsusən Gəncəmizdə milli dəyərlərə və bu dəyərləri yaratmış şəxslərə həssaslıq nümayiş etdirilməsi, şəhərin görkəminin və mənəvi mühitinin sahmana salınması cəhdləri, elə bu çərçivədə qədim "Səbzikar"ın və orada uyuyan Əsgər ağa Gorani, Abdulla Tovfiq Sur, Məşədi Cəmil Əmirov və digər dəyərli isimlərin son məkanlarının da abad olacağına inam doğurur.

**Zakir MURAD**
**Gəncə**

**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

## *Böyükağa Hacıyev:* "Ürəyim onlarla birgədir"

**Hazırda müalicə olunan "Neftçi"nin baş məşqçisi Böyükağa Hacıyev klubun rəsmi saytına müsahibə verib.**



***— Böyükağa müəllim, özünüzü necə hiss edirsiniz?***

— Şükür Allaha, yaxşı hiss edirəm. Moskvada əməliyyat olunduqdan sonra səhhətimdə müsbətə doğru böyük dəyişiklik baş verdi. Müalicəmin yüksək səviyyədə təşkili klub prezidenti Sadıq Sadıqovun qayğısı sayəsində oldu. Hər gün klub nümayəndələri gəlib baş çəkirlər. Hər kəsə minnətdaram. İndi palata şəraitində müalicə olunuram. Həkimlər bərpa prosesini uğurla keçdiyimi deyirlər. Yəqin bu həftənin sonuna kimi evə buraxılacam və komandanın yanında olacam.

***— Avrokubok oyunlarında komandanın yanında ola bilmədiniz. "Neftçi"inin göstərdiyi oyun sizi qane etdimi?***

— "Zestafoni" ilə qarşılaşmada komandamız yaxşı təsir bağışlamışdı. Bu rəqibə qarşı Avstriyada olarkən hazırlaşmışdıq. Orada Gürcüstan komandasının oyununu da canlı izləmişdik və qeydlərimizi aparmışdıq. "Hapoel"lə qarşılaşmada isə ilk 35 dəqiqədə istədiyimiz futbolu oynadıq. Bundan sonra müdafiədə kobud səhvlərə yol verdik və rəqib də bundan yararlandı. Cavab oyununda isə bu məğlubiyyətin əvəzini çıxmaq çox çətin idi.

***— Komandanız Avroliqa turnirinin "play-off" mərhələsində Kiprin APOEL klubu ilə üz-üzə gələcək. Bu rəqib haqqında nə deyə bilərsiniz?***

— Rəqibimiz təcrübəli futbolçulardan qurulub. Ötən mövsüm Çempionlar Liqasında 1/4 final mərhələsinə qədər irəlilədilər və "Real" (Madrid) kimi güclü kluba məğlub olaraq mübarizəni dayandırdılar. APOEL-in oyunlarının videoyazısını izləyirəm və bu barədə məşqçilərlə söhbətimiz olub. Həkimlər icazə vermirlər deyə bu qarşılaşmalarda komandanın yanında ola bilməyəcəm, amma ürəyim onlarla birgədir.

***— Kipr klubuna qarşı ilk matçımızı evdə keçirəcəyik. Azarkeş dəstəyi "Neftçi"nin uğurunda böyük rol oynaya bilər...***

— Mən inanıram ki, azarkeşlər APOEL ilə qarşılaşmada komandamızı tək qoymayacaq. "Zestafoni" ilə görüşdə futbolsevərlər arenanı doldurmuşdu. İnanıram ki, bu dəfə də belə olacaq. Bütün azarkeşləri stadiona dəvət edirəm. Qoy gəlsinlər və dəstək olsunlar. Rəqibin kimliyindən asılı olmayaraq "Neftçi" meydana qələbə üçün çıxacaq.

## *Rəşad Abdullayev:* "Mən o yaşda deyiləm ki, kiməsə nəyisə sübut edim"



**"Qəbələ" klubunun yarımmüdafiəçisi Rəşad Abdullayevin Qol.Az saytına müsahibəsi**

***— Premyer Liqanın üçüncü turunda səfərdə "Neftçi"yə qarşı oynayacaqsınız. Bu oyuna hazırlıq necə gedir?***

— Normal qaydada. Bu görüşə yaxşı köklənmişik. Məqsədimiz Bakıdan sərfəli nəticəylə dönməkdir.

***— Rəqibinizin Avroliqada "Apoel"lə çətin oyunu var. Yəqin ki, sizinlə oyunda çox güc sərf etməməyə çalışacaqlar. Bunu "Qəbələ" üçün əlavə üstünlük hesab etmək olar?***

— Mən belə düşünmürəm. Düzdür, ola bilər "Apoei"i daha çox fikirləşsinlər. Amma nəzərə almaq lazımdır ki, ilk görüşdə "Qarabağ"a məğlub olublar. Ona görə də əksinə bizimlə görüşə tam başqa motivasiyayla çıxacaqlar. Çünki qələbə qazanması psixoloji cəhətdən "Apoel"lə oyunda onlara çox kömək ola bilər. Bu, psixoloji baxımdan çox vacib bir şərtdir. Birdə ki, heç bir klub çempionatda ard-arda iki tur məğlubiyyət acısı yaşamaq istəməz.

***— Sabiq klubun "Neftçi"ylə qarşılaşmanı sənin üçün prinsipial adlandırmaq olarmı?***

— Belə şey fikirləşmirəm. Ona görə ki, "Neftçi"də özümü yaxşı mənada sübut etmişəm. Bu klubda yaxşı günlərim olub. İki dəfə ölkə çempionluğunu yaşamışam. Prinsip məsələsinə gəlincə, belə bir şey yoxdur. Çünki artıq o yaşda da deyiləm ki, kiməsə nəyisə sübut edim. Klubdan ayrıldıqdan sonra rastlaşdığım azarkeşlər məni alqışlayırdı. Hər halda bu o deməkdir ki, "Neftçi"yə layiq futbolçu olmuşam.

***— Keçmiş komandana qarşı oynamaq sənə necə təsir edəcək?***

— Ola bilsin, oyunun ilk dəqiqələrində məndə nostalji hisslər yaranacaq. Lakin oyunun gedişatında artıq komandamın qələbəsi haqda fikirləşəcəm.

***— Səfər qarşılaşmasından üç xal gətirmək şanslarınızı necə görürsən?***

— "Neftçi" öz meydanında da yaxşı oynayır. Bu mövsüm heyətini yaxşı legionerlərlə gücləndiriblər. Şanslar əlinin-əliyyədir. Lakin istənilən halda biz rəqibimizə səfərə nə üçün gəldiyimizi sübut edəcəyik.

***— Necə düşünürsən, "Neftçi"nin Avroliqada "Apoel" səddini keçməsi real görünür?***

— Kipr komandası çox güclüdür. Bu, əvvəlki "Apoel" deyil. Əvvəlki "Apoel"i keçmək olardı. Lakin hazırkı komandanı məğlub etmək çətindir.

**Əli HƏYATİ**

## *Del Boske:* "İspaniya millisi daha çox qol vurmalıdır"

İspaniya milli komandasının baş məşqçisi Visente Del Boske Puerto Riko ilə keçirilən yoldaşlıq görüşü (2:1) haqda danışıb. İspaniyalı mütəxəssis komandasının daha çox qol vurmalı olduğunu bildirib:

"Biz pis oynamadıq. Xeyli sayda qol imkanlarımız oldu. Ancaq bunlardan yalnız ikisindən istifadə edə bildik. Qələbələr bizim gücümüzə güc qatır. Bununla belə, düşünürəm ki, iddialı komanda olmaq üçün daha çox qol vurmalıyıq".

Qeyd edək ki, İspaniya millisi "DÇ-2014"ün seçmə mərhələsində ilk oyununu Gürcüstana qarşı keçirəcək.

## *Paulo Bentu:* "Azərbaycanla oyunda heyətdə dəyişiklik edəcəyəm"

"Biz sabit oyun nümayiş etdirməyə çalışırıq. Bu heyət optimal varianta çox yaxındır. Lakin qarşıda bizi uzun bir marafon gözləyir".

Bu sözləri Portuqaliya millisinin baş məşqçisi Paulo Bentu Panama ilə keçirilən yoldaşlıq görüşündən sonra (2:0) deyib.

Portuqaliya mütəxəssis seçmə mərhələdə komandasının heyətində bəzi dəyişikliklərin olacağını da istisna etməyib:

"DÇ-2014"ün seçmə mərhələsinin oyunlarında heyətdə bəzi dəyişikliklər qaçılmaz olacaq. Bununla belə, millinin qapıları hər kəsin üzünə açıqdı. Mən yığmada yüksək rəqabətin olmasını istəyirəm. Yığmaya ancaq o futbolçular çağırılacaq ki, komandanın maraqlarına uyğun olsun. Azərbaycan və Lüksemburqla oyunlarda da müəyyən dəyişikliklərə əl atacağam".

Qeyd edək ki, Portuqaliya — Azərbaycan oyunu sentyabrın 12-də Braqa şəhərində keçiriləcək.

## *Arsen Venger:* "Yeni mövsüm çempionluğa oynayacağıq"

"Arsenal" klubunun baş məşqçisi Arsen Venger yeni mövsüm öncəsi iddialı açıqlamaları ilə diqqət çəkib.

Britaniya mətbuatına danışan fransız mütəxəssis bu mövsüm çempionluğa oynayacaqlarını bildirib:

"Ötən mövsüm Sesk Fabreqas və Samir Nəsri kimi aparıcı oyunçularımızı itirdik. Üstəlik mövsüm boyu xeyli zədəli futbolçularım oldu. Ancaq bu mövsüm fərqli olacaq. Hər zaman olduğu kimi yenə də çempionluğa oynayacağıq. Əlbəttə, bu heç də asan görünmür. Lakin komandama güvənirəm və çempionluq üçün əlimizdən gələni edəcəyik".

Qeyd edək ki, "Arsenal" klubu ötən mövsümü 70 xalla 3-cü pillədə başa vurmuşdu.

## *Maradona:* "Çində çalışmaq istəyirəm"

Argentina futbolunun canlı əfsanəsi Dieqo Armando Maradona karyerasını Çində davam etdirə bilər.

"La Gazetta dello Sport"un verdiyi məlumata görə, 51 yaşlı mütəxəssis Çindən təklif aldığını təsdiqləyib.

Lakin komandanın adını açıqlamayan Maradona bu ölkədə çalışmaq istədiyini bildirib: "Çindən təklif almışam. Mənə maraqlı gəldi və orada çalışmaq istəyirəm. Çinli gənclərin futbol fəlsəfəsinə öz töhfəmi verəcəyimə inanıram".

Qeyd edək ki, Maradona son olaraq Birləşmiş Ərəb Əmirliklərinin "Əl Vasl" klubunu çalışdırıb.

**Materialları Anar Cəfərsoy hazırladı**

## "Fənərbağça"dan "Lion"un hücumçusuna 9 milyon avro



"Yuventus"dan Miloş Krasiçi transfer edən "Fənərbağça" klubu daha bir hücumçu almaqda israrlıdır.

"Sarı lacivərdlilər" "Lion"un hücumçusu Bafetimbi Qomisi transfer etmək niyyətindədir.

"Fənərbağça"nın baş məşqçisi Aykut Kocaman yeni mövsümdən Qomisi komandasında görmək istəyir. "Lion" rəhbərliyinin 27 yaşlı futbolçunu digər komandalara sata biləcəklərini açıqlaması da "Fənərbağça"nı hərəkətə keçirib. İstanbul təmsilçisi fransız futbolçunun transferi üçün "Lion"a 9 milyon avro təklif edib.

Qeyd edək ki, 2009-cu ildən "Lion"da çıxış edən Qomis keçirdiyi 107 oyunda 34 qola imza atıb.

## *Messi:* "Ronaldo ilə aramızda heç bir problem yoxdur"

"Barselona" klubunun ulduz futbolçusu Lionel Messi yenidən diqqət mərkəzinə düşüb.

"Ole"yə danışan Messi "Real" (Madrid) klubunun futbolçusu Kriştiano Ronaldo ilə aralarında heç bir problem olmadığını bildirib:

"Mətbuatda bizim haqda yanlış xəbərlər dolaşır. Lakin Ronaldo ilə aramızda heç bir problem yoxdur. Ona qarşı heç zaman savaşmadım. Əksinə bir-birimizə qarşı hörmətlə yanaşırıq.

"Qızıl top"un kimin qazanacağına gəldikdə isə təbii ki, bu mükafata yenidən sahib çıxmaq istərdim. Ancaq əgər bunu mən qazanmasam, o zaman mükafat Xavi və İniyestaya verilsin. Əlbəttə, Ronaldo və Kasilyas böyük oyunçulardır. Amma komanda yoldaşlarım daha öncə gəlir".

Qeyd edək ki, Messi "Qızıl top"u qazanmaq uğrunda yarışmada Ronaldo və İniyesta ilə mübarizə aparır.

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2770
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA v□ "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.